# Milli maraqlara hesablanmış müstəqil xarici siyasət

## ABŞ Prezidenti Donald Tramp:

## *Azərbaycan özünün tarixində bugünkü qədər firavan və qlobal iqtisadiyyata bağlı olmamışdır*

*Cənub Qaz Dəhlizi daxil olmaqla, Azərbaycanda hasil olunan neft və qaz dünya enerji bazarlarında sabitliyi artırmaqda davam edir... Amerika Birləşmiş Ştatları xarici sərmayələrin cəlb edilməsi və innovasiyaların təşviqinə xidmət edəcək iqtisadi islahatların davam etdirilməsində səylərinizi dəstəkləyir. Azərbaycanın iqtisadi uğuru bütün regiona sabitliyin gətirilməsinə yardım edəcəkdir.*

*ABŞ Prezidenti Donald Trampın Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin keçirilməsinin 26-cı ildönümü ilə əlaqədar Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı 29 may 2019-cu il tarixli təbrik məktubundan*

**Azərbaycanın fəal, prinsipial, milli maraqlara hesablanmış müstəqil xarici siyasət yürütməsi beynəlxalq aləmdəki nüfuzunu getdikcə yüksəldir. Hazırda ölkəmiz regionun siyasi, iqtisadi, humanitar mərkəzi rolunu oynayır, bir sıra səmərəli təşəbbüslərin, yeni əməkdaşlıq formatlarının müəllifi və fəal iştirakçısına çevrilib. Azərbaycan xarici əlaqələrini daim genişləndirir, dünyada etibarlı tərəfdaş kimi tanınır, beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlığını inkişaf etdirir, bölgədə və dünyada sülhün, sabitliyin, təhlükəsizliyin qorunmasına öz töhfəsini verir. Təsadüfi deyildir ki, bu gün Bakı mühüm beynəlxalq tədbirlərin keçirildiyi məkandır.**



Azərbaycanın beynəlxalq təhlükəsizliyə verdiyi töhfələr dünya birliyində yüksək dəyərləndirilir. ABŞ Prezidenti Donald Trampın 28 May – Respublika Günü münasibətilə Prezident İlham Əliyevə ünvanladığı təbrik məktubunda bu məqam xüsusi olaraq vurğulanır. ABŞ Prezidenti təbrik məktubunda 1918-ci ildə həmin gün Azərbaycanın müstəqilliyinin elan olunduğunu və Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığını qeyd edib. Vurğulayıb ki, yüz ildən artıq bir vaxt keçdikdən sonra Amerika Birləşmiş Ştatları bütün azərbaycanlılarla birlikdə bu nailiyyətləri qeyd etməkdən məmnundur. Təbrik məktubunda daha sonra qeyd edilir: "Dövlətlərimiz arasında bir çox ortaq maraqlar üzərində qurulmuş güclü tərəfdaşlıq mövcuddur. Azərbaycanın beynəlxalq təhlükəsizliyə verdiyi töhfələri və Cənub Qaz Dəhlizi təşəbbüsünü irəli sürməklə Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsində Sizin liderliyinizi dəyərləndirirəm. Azərbaycanda islahatlar istiqamətində, xüsusilə də qanunun aliliyi sahəsində Azərbaycan xalqının mənafeyinə xidmət edəcək və əməkdaşlığımızın dərinləşməsi üçün imkanlar yaradacaq bütün addımları alqışlayırıq. Həmçinin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə və dayanıqlı həlli istiqamətində ATƏT-in Minsk qrupu prosesində Sizin şəxsi iştirakınızı təqdir edirik".

Bundan bir gün sonra ABŞ konqresmeni Henri Kuelların dövlətimizin başçısına ünvanladığı təbrik məktubunda da Amerika Birləşmiş Ştatlarının Azərbaycanı etibarlı müttəfiq hesab etməsi öz əksini tapıb. Konqresmen Azərbaycanın terrorizmə qarşı qlobal mübarizədə ABŞ-a öz qəti dəstəyini vermiş ilk ölkələr sırasında olduğunu bildirib. Qeyd edib ki, ABŞ ölkələrimiz arasında sülhməramlı əməliyyatlar və enerji təşəbbüsləri sahələrindəki davamlı əməkdaşlığımızı, eləcə də mühüm əhəmiyyət daşıyan ticari tərəfdaşlığımızı yüksək qiymətləndirir.

Konqresmenin "Sizə və Azərbaycan xalqına tərəfdaşlığınıza və azadlıq ideallarına daimi sadiqliyinizə görə minnətdarlığımı bildirirəm" -- deməsi dünyanın super gücü olan dövlətin ölkəmizə inam və etibarının göstəricisidir.

Onu da qeyd edək ki, son illər ölkəmizlə əməkdaşlığı genişləndirmək dünyanın inkişaf etmiş digər dövlətlərinin də maraq dairəsindədir. Bu fakt diqqətçəkən məqamlardan biridir. Bir həftə əvvəl ölkəmizə rəsmi səfərə gəlmiş Çin Xalq Respublikasının xarici işlər naziri Van Yinin başçılıq etdiyi nümayəndə heyəti ilə Prezident İlham Əliyevin görüşü zamanı aparılan danışıqlar da bunu təsdiqlədi. Qeyd olundu ki, Çin – Azərbaycan əlaqələri strateji xarakter daşıyır və bu ölkə Azərbaycanın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda siyasi və sosial sabitliyin təmin olunduğunu, ölkəmizin iqtisadi baxımdan davamlı inkişaf etdiyini, əhalinin rifah halının ardıcıl surətdə yüksəldiyini dəyərləndirən Van Yi Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun daim artdığını və möhkəmləndiyini xüsusi vurğulamışdı. Ölkəmizin uğurlarının Çində maraqla izlənildiyini bildirən qonaq əldə olunan bu nailiyyətlər və eyni zamanda, qarşıdan gələn 28 May -- Respublika Günü münasibətilə Çin Xalq Respublikasının Sədri Si Cinpinin təbriklərini Prezident İlham Əliyevə çatdırmışdı.

Prezident İlham Əliyevin Çinə son səfəri zamanı bu ölkənin rəhbəri və digər dövlət rəsmiləri, habelə şirkət rəhbərləri ilə keçirilən görüşlər və aparılan səmərəli müzakirələr əlaqələrimizin strateji xarakter daşıdığını bir daha təsdiq etdi. İkitərəfli münasibətlərin, xüsusilə siyasi əlaqələrimizin yüksək səviyyədə olması, iqtisadi-ticari sahədə əməkdaşlığımızın yaxşı perspektivlərdən xəbər verməsi xarici siyasətimizin növbəti uğurlarındandır.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dövlətimizin başçısına ünvanladığı təbrik məktubunda da ölkəmizin sosial-iqtisadi inkişaf yolunda inamla irəlilədiyi, beynəlxalq gündəlikdəki aktual məsələlərin həllində mühüm rol oynadığı öz əksini tapıb. V. Putin öz ölkəsində Azərbaycan ilə münasibətlərin yüksək qiymətləndirildiyini diqqətə çatdırıb və bütün sahələrdə səmərəli ikitərəfli əlaqələrin, regional sabitliyin və təhlükəsizliyin təmin edilməsində konstruktiv qarşılıqlı fəaliyyətin bundan sonra da birgə səylərlə uğurla inkişaf etdiriləcəyinə əminliyini bildirib.

Azərbaycanın yeganə problemi olan Ermənistan -- Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə gəlincə isə ABŞ, Çin Xalq Respublikası, Rusiya Federasiyası, ümumiyyətlə, dünyanın inkişaf etmiş əksər dövlətləri problemin aradan qaldırılmasında Prezident İlham Əliyevin mövqeyini dəstəklədiklərini bəyan edibər. Bu mövqe münaqişənin beynəlxalq hüququn prinsip və normaları, Azərbaycanın ərazi bütövlüyü əsasında həllindən ibarətdir. Həmin istiqamətdə prinsipial siyasət yürüdən dövlətimizin başçısı dəfələrlə bəyan edib ki, heç bir qüvvə onu öz mövqeyindən çəkindirə bilməz.

Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrün sabitlik, təhlükəsizlik və inkişaf mərhələsi kimi xarakterizə edilməsi təsadüfi deyildir. Son 16 il ərzində, sözün həqiqi mənasında, ölkəmizdə sabitlik və əmin-amanlıq hökm sürməkdədir. Azərbaycan bu gün müsəlman dünyasında "sabitlik adası" kimi tanınır. Dövlətin xaos və anarxiyaya yuvarlanmasını şərtləndirən əsas amillərdən biri sabitliyin, ictimai-asayişin təmin olunmaması kifayətdir. Qonşu regionlarda və dünyada baş verən qanlı münaqişələr, toqquşmalar, müharibələr, risklər, təhdidlər, miqrant axını fonunda ölkəmizdə həyat tərzinə çevrilmiş sabitlik mühiti uğurlu xarici siyasətin bariz nümunəsidir. Bu, bizim tarixi nailiyyətimiz və sərvətimizdir. Sabitliyimiz təhlükəsizliyimizi şərtləndirir.

Sabitlik və təhlükəsizliyimizin təminatçısı Azərbaycan xalqı və onun hakimiyyətlə olan monolit birliyi, düzgün müəyyənləşdirilmiş daxili və xarici siyasət, dövlət idarəçiliyindəki yeni idarəetmə, ardıcıl aparılan islahatlar, səfərbər olunmuş cəmiyyət və vətəndaş həmrəyliyidir. Bütün bunların kökündə dayanan əsas amil xalqın Prezident İlham Əliyevə olan inamı, etimadı və etibarı,"iqtidar-xalq" vəhdətinin sarsılmaz birliyidir. Prezidentin öz xalqının etibarını qazanması, ilk növbədə, milli maraqların, adət-ənənələrin, milli-mənəvi dəyərlərin, dövlətçiliyin qorunub saxlanılmasından irəli gəlir.

Son 16 ildə dövlət başçımızın ayrı-ayrı beynəlxalq siyasi dairələrin və dövlətlərin diktəsi ilə deyil, məhz Azərbaycan xalqının milli mənafeyindən irəli gələn müstəqil, düşünülmüş xarici siyasət həyata keçirməsi beynəlxalq aləmdəki mövqelərimizi daha da möhkəmləndirib. Bu müddət ərzində ölkəmizə qarşı təhdid və təzyiq vasitələrinə, qərəzli şəkildə aparılan piar kampaniyalarına baxmayaraq, bizi milli dövlətçilik maraqlarımıza uyğun gəlməyən heç bir beynəlxalq kampaniyalara cəlb etmək mümkün olmamışdır. Azərbaycanın xarici siyasəti hər hansı beynəlxalq siyasi dairənin və ya böyük dövlətin diktəsi altında deyil, məhz öz xalqının mənafeyindən irəli gələn milli maraqlar, dövlətçiliyin daha da möhkəmləndirilməsi üzərində qurulmuşdur.

Prezident İlham Əliyevin bütün dünyada müstəqil xarici siyasət həyata keçirən lider kimi tanınması onun 16 illik olduqca çətin, mürəkkəb, lakin şərəfli fəaliyyətinin nəticəsidir. Dövlət başçısının özünün qeyd etdiyi kimi, ən asan olan hər hansı bir böyük dövlətin qanadları altına sığınıb öz siyasətini həyata keçirməkdir. İşğalçı Ermənistan kimi. Lakin bu siyasət heç bir halda hakimiyyətin mənbəyi olan xalqın milli mənafeyini nəzərə ala bilməz. Dövlətimizin başçısı üçün ən əsas və prioritet məsələ məhz milli maraqlar və dövlətçiliyimizin mövqeyinin daha da möhkəmləndirilməsidir. Məhz bu yol yeganə düzgün yoldur və həmin yol Azərbaycanı uca zirvələrə aparır.

*Əliqismət BƏDƏLOV,*
*"Xalq qəzeti"*